F.Q.ORUCOVA
e-mail: farah.bayramova@mail.ru

Azərbaycan Dillər Universiteti
(Bakı şəh., R.Behbudov küç., 134)

:10.62021/0026-0028.2024.2.058

SUBSTANTİVLƏŞMƏ MÜASİR AZƏRBAYCAN DİLİNDƏ AKTİV PROSES KİMİ

Xülasə. *Bu məqalə dildə kompressiyanın nəticəsi kimi qiymətləndirilən substantivləşmənin öyrənilməsinə həsr edilmişdir. Məqalədə substantivləşmə digər nitq hissələrindən ismin düzəldilməsi üsulu kimi nəzərdən keçirilir. Müəllifin fikrincə, "substansiya" dilçilikdə ümumi qəbul edilmiş termindir. Substansiya dildaxili söz əmələ gətirmə imkanlarına görə dilin leksik qatını zənginləşdirməyin əsas yollarından biridir. Daha geniş mənada əsaslandırma müxtəlif nitq hissələrinin onlara keçid yolu ilə isimlərin əmələ gəlməsidir.*

Açar sözlər: *substantivləşmə, substantiv, konversiya, sözdüzəltmə üsulu, funksional aspekt, morfoloji, sintaktik*

Son illər dil hadisələrinin keçici xüsusiyyətlərinin təsvirinə imkan verən funksional yanaşma mövqeyindən öyrənilməsinə üstünlük verilməsi dilçilikdə geniş xarakter almışdır. Bunun nəticəsi kimi dil hadisələrinin funksional aspektinə, xüsusən də kommunikasiya aktında dil vahidlərinin yenidən kateqoriyalaşmasının müxtəlif formalarına aid kompleks problemlərin öyrənilməsinə xüsusi diqqət yetirilir. Müasir dilçilikdə substantivləşmənin öyrənilməsinin iki aspekti mövcuddur: 1) substantivləşmə sözdüzəltmə üsulu, qeyri-morfoloji (morfoloji-sintaktik) üsulun növü kimi nəzərdən keçirilir; 2) substantivləşmə digər nitq hissələrinin hesabına ismin ehtiyatlarının zənginləşməsinin morfoloji prosesi kimi səciyyələndirilir.

Ayrı-ayrı dillərin söz yaradıcılığı sistemində konversiya və substantivləşmə kimi üsullar xüsusi yer tutur. Burada əsas problem bəzi dilçilərin substantivləşməni konversiya növü, digərlərinin isə onu fərqli dil hadisəsi kimi izah etməsindədir. Bu tədqiqatların ana xəttini təşkil edən fikir ondan ibarətdir ki, konversiya yeni sözün yaradılmasının birdəfəlik hərəkət, substantivləşmə isə sözün bir nitq hissəsindən digərinə tədricən keçməsidir. Substantivləşmənin növləri ilə bağlı məsələ dilçilikdə mübahisə predmetidir. Məsələn, A.İ.Smirnitski sifətin onun üçün səciyyəvi olmayan, ismə xas sintaktik funksiyaları yerinə yetirdiyi qismən (natamam) substantivləşməni qəbul etmir [13; 14].

Konversiya prosesi dilin daxili inkişaf qanunauyğunluqlarından biri kimi dilin ifadə və məzmun planlarının qarşılıqlı münasibətdə öyrənilməsi əsasında yaranır. A.A.Reformatskiyə görə, konversiya "sözün digər kateqoriyaya keçməsidir və bu zaman söz morfoloji tərkibini dəyişmədən başqa paradiqmə düşür" [12, s.296]. A.İ.Smirnitskiyə görə, "konversiya elə növ sözyaratma vasitəsidir ki, bu zaman yalnız sözün paradiqmi sözyaratma vasitəsi kimi çıxış edir" [13, s. 24].

A.A.Axundov konversiya hadisəsini "1) dəyişmə, bir haldan başqa hala keçmə 2) dilçilikdə isə substantivləşmə (isimləşmə), verballaşma (feilləşmə)" kimi izah edir [2, s.179]. Müəllifə görə, "konversiya hadisəsi dilin dörd səviyyəsində özünü göstərir: 1) sintaktik, 2) morfoloji-sintaktik, 3) semantik-sintaktik, 4) semantik" [2, s 160]. R.M.Abdullayevə görə, "tam konversiya zamanı yeni yaranmış söz nitq hissəsinin bütün xüsusiyyətlərini özünə götürür, qismən konversiyada isə digər nitq hissəsinin bütün xüsusiyyətlərini götürməsi vacib deyildir" [1, s. 52].

Semantik qatın inkişafı ilə əlaqədar sözlər yeni məna çalarları qazanır. Sözlərin bir kateqoriyadan digərinə keçməsi derivasiya, morfoloji transpozisiya və ya konversiya hadisəsi ad-

landırılır. Dilin morfoloji səviyyəsində bir nitq hissəsinin digərinə keçməsi bir sözün bir neçə nitq hissəsinin yerində işlənmə xüsusiyyəti ilə əlaqəlidir. "Linqvistik terminlər lüğəti"ndə isə konversiya "sözün başqa sözdəyişdirici paradiqmlərə keçərək yeni söz yaradıcılığı yolu" olması kimi izah edilir [11, s. 110].

Konversiya hadisələri arasında substantivləşmə zənginliyi ilə diqqəti cəlb edir. Q.Ş.Kazımova görə, substantivləşmə "maddi varlığa, materiyaya xas olan əlamətin, keyfiyyətin dildə maddi varlığı, materiyanı əvəz etməsi hadisəsidir" [6, s.112]. Dilin dinamik xarakteri yeni sözlərin meydana gəlməsi və ya mövcud sözlərin yeni mənalar kəsb etməsində özünü büruzə verir. V.V.Vinoqradov substantivləşməni sifətin sintaktik əlaməti kimi izah edir. Müəllifə görə, "isimlər kateqoriyası öz sisteminə sifətlərin keçmiş formalarını fasiləsiz olaraq cəlb etməkdədir" [8, s. 52].

Substantivləşmə dildə qənaət prinsipinin reallaşmasıdır. Substantivləşmə sözlərin birbaşa predmetə işarə etmək xassəsi qazanması nəticəsində digər nitq hissələrindən isim cərgəsinə keçməsidir. Onu geniş mənada predmetləşmə də adlandırmaq olar. Substantivləşmə dildə leksik-semantik konversiyanın əsas növlərindən biridir. Substantivləşmə sözlərin digər qrammatik siniflərdən hər hansı sözdüzəldici vasitələri tətbiq etmədən isim siniflərinə keçididir. Substantivləşmə hadisəsini iki aspektdən – diaxron və sinxron aspektlərdən nəzərdən keçirmək olar:

1) Sinxron aspekt. Müşahidə olunan substantivləşmə ötəri, keçici xüsusiyyətdir, çünki substantivləşən sözün ismə xas daşıdığı əlamətlər keçici xarakter daşıyır, həmin isim əvvəlki "yerinə qayıdan kimi" substantivləşən söz də özünün ilkin əlamətlərinə qayıdır. Məsələn: */Yorulan biçinçilər kölgəyə çəkildilər//; /Yorulanlar kölgəyə çəkildilər//* və s.; 2) Diaxron aspektdən. Bəzən substantivləşmə uzunmüddətli olur, nəticədə substantivləşən dil vahidi tam şəkildə isimləşir. Məsələn, "biləyən" (bilikli adam), "ağlağan" (çox ağlayan uşaq) və s.

Dildə bir nitq hissəsinin digərinə keçidi morfologiya və söz yaradıcılığının kəsişməsində baş verdiyindən, söz yaradıcılığında o, morfoloji-sintaktik sözdüzəltmə üsulu hesab edilir. Məhz buna görə biz bu hadisənin impulslarının sintaksisdən qaynaqlandığı fikrindəyik. Dil vahidi tutduğu sintaktik mövqeyə uyğun müvafiq paradiqmin morfoloji əlamətlərini də qəbul etmiş olur. Beləliklə, morfologiyanın impulsları sintaksisin impulslarına tabe olur. Substantivləşmə və konversiya arasındakı fərq belədir: konversiya birdəfəlik sözdüzəltmə aktı, substantivləşmə isə uzun diaxronik prosesdir. Bu fikri müdafiə edən İ.V.Arnold yazır ki, substantivləşmə "dildəki sözün mənasının və sintaktik funksiyalarının dəyişməsinin uzun sürən prosesidir" [15, s. 151]. D.A.Qromova substantivləşmə və konversiyanı fərqləndirərək yazır: substantivləşmə "vahidin məzmununun dəyişməsinin uzunmüddətli mexanizmi və sadəcə olaraq ismin mövqe (kontekstual) əvəzlənməsidir" [9, s. 41].

Azərbaycan dilində substantivləşməni belə daimi və müvəqqəti substantivləşmə olmaqla iki cür qruplaşdırmaq olar. Daimi substantivləşmədə müəyyən sözün məlum hallarda substantivləşməsi, mətn və ya kontekstlə müəyyənləşən sözlərin yaranması halı isə müvəqqəti substantivləşmə adlandırmaq olar. Bildirmək istərdik ki, məsələnin mahiyyətinə belə yanaşmaq düz deyildir, çünki substantivləşmə özü keçid prosesidir, keçid prosesin isə tam və ya müvəqqəti növü ola bilməz. Bu prosesin özü tam müvəqqəti halı əks etdirir. Azərbaycan dilində daimi substantivləşmə hallarına atalar sözlərində daha çox rast gəlinir. Məsələn: /İgid ölər, adı qalar, müxənnətin nəyi qalar//; /İgin bir dəfə, qorxaq yüz dəfə ölər//; /İslanmışın yağışdan nə qorxusu// və s.

İnsanın psixoloji vəziyyəti ilə bağlı sifətlərin substantivləşməsinə nümunə kimi "ağıllı", "axmaq", "dəli", "gic", "meyxoş", "sərxoş", "arif", "müdrik", "səfeh" və s. sözlərini göstərmək olar. Məsələn: /Müdrik çətin vəziyyətə düşməz//; /Dəlidən doğru xəbər// və s. Azərbaycan dilində xeyli sayda situasiyadan asılı olaraq müvəqqəti substantivləşmiş sifətlər də vardır. Məsələn, "şirin" (alma) – "şirin", "kar" (adam) – "kar", "hiyləgər" (tülkü) – "hiyləgər", "yırtıcı" (canavar) – "canavar" və s.

Kontekstdə sifət təyin etdiyi ismin funksiyasını öz üzərinə götürərək substantivləşir və sifətin leksik məna növlərini tam şəkildə əhatə edir: a) rəng bildirən sifətlər təyin etdiyi ismin funksiyasını öz üzərinə götürərək substantivləşir: "qara" (rəngi) – "qaranı", "qırmızı" (rəngdə) – "qırmızıda" və s.; /Qırmızı rəng müasirlik rəmzidir// – /Qırmızı müasirlik rəmzidir//; b) məkan, həcm, ölçü bildirən sifətlər təyin etdiyi ismin funksiyasını özündə cəmləşdirərək substantivləşir: "uzun" (adam) – "uzun", "gödək" (adam) – "gödək" və s.; /Gödək uşaq uzuna əl uzatdı// – /Gödək uzuna əl uzatdı//; c) dad və lamisə üzvlərimiz vasitəsilə dərk olunan sifətlərin substantivləşməsi: "acı" (bibər) – "acı", "isti" (hava) – "isti", "soyuq" (hava) – "soyuq", mülayim (hava) – "mülayim", "şirin" (kökə) – "şirin", "tünd" (çay) – "tünd" və s.; d) insan və heyvanların xarici əlamətlərini, xasiyyətini, daxili keyfiyyətini bildirən sifətlərin substantivləşməsi: "kor" (adam) – "kor", "keçəl" (adam) – "keçəl" və s.; e) seçmə, fərqləndirmə mənalarını bildirən sifətlərin substantivləşməsi: "başqa", "qeyri", "digər" (adamlar) – "başqaları"; ə) ümumi əlamət, keyfiyyət bildirən sifətlərin isimləşməsi: "yaxşı adamın" – "yaxşının", "gözəl adamın" – "gözəlin" və s.

Morfoloji yolla müvəqqəti substantivləşmə aşağıdakı hallarla bağlıdır: a) ümumi əlamət, keyfiyyət bildirən sifətlər /-lar^2/ şəkilçisi ilə işlənərək substantivləşəyə məruz qalırlar. Məsələn: "ağıllı" (adamlar) – "ağıllılar", "müdrik" (adamlar) – "müdriklər" və s.; b)rəng bildirən sifətlər "-lar^2" şəkilçisi vasitəsi ilə isimləşir: "ağlar", "qaralar", "narıncılar" və s.; v) məkan, həcm, dad, xarici görünüş və s. mənaları bildirən sifətlər /-lar^2/ cəmlik bildirən şəkilçi qəbul edərək substantivləşir: "dahi", "böyük", "igid" – "dahilər", "böyüklər", "kiçiklər", "aqillər" və s.; ç) /-dakı^2/ şəkilçilərinin iştirakı ilə yaranan düzəltmə sifətlər /-lar^2/ şəkilçisi vasitəsi ilə substantivləşirlər: "şəhərdəki", "kənddəki" (evlər/ – "şəhərdəkilər", "evdəki" – "evdəkilər", "sinifdəkilər" və s.

Azərbaycan dilində sifət, feili sifət və əvəzlik cəm şəkilcisi vasitəsilə müvəqqəti substantivləşməyə məruz qala bilərlər. Q.Ş.Kazımova görə, "sifətlər, saylar, feili sifətlər və zərflər mübtəda vəzifəsində işlənmək üçün isimləşməli olur – öz xüsusiyyətlərini saxlamaqla yanaşı, şəxs, əşya məzmununu da qazanır" [5, s. 104].

Azərbaycan dilində ən çox substantivləşən əvəzliklərə işarə, təyini və qeyri-müəyyən əvəzlikləri aid etmək olar. Müəyyənlik təyinləri, o cümlədən bu, o işarə əvəzlikləri qeyd etdiyimiz sözlərdən əvvəl gəldikdə özləri substantivləşərək mübtəda olur və həmin sözlərin də predikativləşməsini – xəbər olmasını tələb edir. Məsələn, Bu bura, o da sizin kəndiniz, hansı daha abaddır?

Azərbaycan dilində zərfin substantivləşməsi də geniş yayılmışdır. Məsələn: /Buralar yaylaq, oralar qışlaqdır//; /Gecədən sonra səhərlər xeyrə açılsın// və s.

Azərbaycan dilində əsas nitq hissələri kimi köməkçi nitq hissələrinin də substantivləşməsinə rast gəlinir. S.Cəfərovun fikrincə, "köməkci nitq hissələri içərisində substantivləşmə cəhətdən qoşmalar xüsusi qrup təşkil edir. Məsələn: "üçün", "ötrü", "görə" səbəb bildirən qoşmalardır [4, s. 35].

Azərbaycan dilində feilin substantivləşməsində eyni fonem tərkibinə malik söz müxtəlif funksional situasiyalarda həm əşyanı, həm də hərəkət ifadə etmək xüsusiyyətləri qazanır. Məsələn, gül (mək), köç (mək), düz (mək), yar (maq), ac (maq) və s.

Azərbaycan dilində feilin təsriflənən formaları prediqativlik kəsb edir və adətən cümlədə xəbəri rolunda işlənirlər. Daimi substantivləşmə nəticəsində onların bir qismi substantivləşə bilirlər. Onları aşağıdakı qruplara bölmək olar:

1) əmr bildirən feillərin substantivləşməsi: "alver", "atəşkəs", "çal-çağır", "çaloyna", "get-gəl", "gizlənqaç" və s. Əmr şəkilində olan feil də substantivləşə bilir. Məsələn, /Köç yaylağa getdi – Sən də yaylağa köç// belə yaranmışdır.

2) xəbər şəklindəki feillərin substantivləşməsi: a) adlıq halda olan isim + feil – "Allahverdi", "Ağaverdi", "Şahgəldi", "Qızyetər" və s.; b) qeyri-müəyyən təsirlik haldakı isim + feil, məsələn, adqoydu, paltarbiçdi, qayışgötdü, xınayaxdı və s.;

3) feilin xəbər şəklindəki feil də müxtəlif isimlərə keçə bilir. Məsələn, "Tapdıq", "Yaşar", "Yetər", "Sevər", "Gülər" kimi şəxs adları məhz bu yolla formalaşmışdır.

Məsdərin cümlədə həmin cür substantivləşərək isim kimi işlədilməsi Azərbaycan dili üçün də səciyyəvidir. Məsdər həm təsdiq, həm də inkar formasında substantivləşir. O həm təklikdə, həm də ona aid söz birləşmələri (məsdər tərkibləri) şəklində substantivləşir. Məsdər adlıq halda işlənməklə, cümlədə mübtəda, xəbər vəzifələrini icra edir. Məsələn: /Danışmaq dananı qurda verər// və s.

İşin elmi nəticəsi: Substantivləşmə ilk baxışdan sözün bir nitq hissəsindən digərinə keçidi kimi görünsə də, əslində, bu dil hadisəsi sırf funksional mahiyyətlidir və yalnız cümlə daxilində baş verir. Cümlədən kənarda sözün bir nitq hissəsindən digərinə keçidini formal-semantik baxımdan müəyyən etmək mümkün deyildir. Substantivləşmə funksional dəyişmə, yəni konkret dil vahidi cümlə daxilində mövqeyini tutduğu cümlə üzvü funksiyasında çıxış etməsidir. Substantivləşən söz (substantiv) bir nitq hissəsindən digərinə yox, cümlə daxilində bir cümlə üzvü funksiyasından digər sintaktik funksiyaya keçir.

İşin elmi yeniliyi: Konversiya yolu ilə yaranan substantivləşməsinin tipoloji aspektdə tədqiqi, hər iki dildə söz yaradıcılığında konversiyanın imkanlarının müəyyən edilməsi işin elmi yeniliyi kimi qiymətləndirilə bilər. Aparılmış tədqiqat işi müstəqil sözdüzəltmə üsulları kimi konversiya və substansiya haqqında mövcud təsəvvürləri genişləndirir və sistemləşdirir.

İşin tətbiqi əhəmiyyəti: Substantivləşmə yolu ilə söz yaradıcılığı prosesinin öyrənilməsi mövzu ilə bağlı nəzəri fikirlərin inkişafına xidmət edə bilər. Tədqiqatın nəticələrindən buraxılış işlərinin yazılmasında mənbə kimi istifadə edilə bilər.

Ədəbiyyat

1. Abdullayev, R.M. Türk dillərində konversiya və ya keçid prosesi / R.M.Abdullayev. − Bakı: Elm və Təhsil, − 2011, − 146 s.
2. Axundov, A.A. Azərbaycan dilinin izahlı lüğəti / A.A.Axundov, − Bakı: Şərq-Qərb, − 2005, − 451s.
3. Axundov, A.A. Azərbaycan dilində konversiya //Azərbaycan dili və ədəbiyyatı tədrisi. − Bakı, − 1977, №1, − 66-75 s.
4. Cəfərov, S. Nitq hissələrində keçid prosesləri / S.Cəfərov, − Bakı: APİ nəşri, − 1983, − 93 s.
5. Kazımov, Q.Ş. Müasir Azərbaycan dili.Sintaksis / Q.Ş.Kazımov. − Bakı: Ünsiyyət, − 2000, − 494 s.
6. Kazımov, Q.Ş. Müasir Azərbaycan dili. Morfologiya / Q.Ş.Kazımov. − Bakı: Elm və təhsil, − 2010, − 400 s.
7. Ахманова, О.С. Словарь лингвистических терминов / О.С.Ахманова, – М.: Изд-во «Советская энциклопедия», − 1966. – 608 с.
8. Виноградов, В.В. Русский язык. Грамматическое учение о слове / под ред. Г.А. Золотовой. 4-е изд. – М.: Рус. яз., − 2001. – 784 с.
9. Громова, Д.А. Субстантивация разных видов языковых единиц. Её возможности и пределы (на материале английского языка): дис. … канд. филол. наук / Д.А. Громова. – Санкт-Петербург, −1994. –240 с.
10. Жлуктенко Ю.А. Конверсия в современном английском языке как морфолого-синтаксический способ словообразования // Вопросы языкознание, − 1958, №5, − с.53-64.
11. Лингвистический энциклопедический словарь / Под ред. В.Н.Ярцева. – М.: Большая Российская энциклопедия, − 2002, − 709 с.
12. Реформатский А.А. Введение в языковедение / А.А.Реформатский. − М.: Аспект Пресс, − 2005, − 536 с.
13. Смирницкий А.И. Лексикология английского языка. – М.: Издательство Литературы на иностранных языках, − 1956, − 258 с.
14. Смирницкий, А.И. По поводу конверсии в английском языке [Текст] / А.И.Смирницкий // Иностранные языки в школе. – 1954. – № 3. – с.12-24.
15. Arnold I.V. The English Word. M.: Высщая школа, − 1986. − 294 p.

F.G.Orujova

Substantivization as an Active Process in Modern Azerbaijani

Summary

This article delas with the study of substantivization, which is evaluated as a result of compression in the language. In the article, substantivization is considered as a method of forming a noun from other parts of speech. According to the author, “substance” is a generally accepted term in linguistics. Substance is one of the main ways of enriching the lexical layer of the language due to the possibilities of intralingual word formation. Reasoning, in a broader sense, is the formation of nouns by transitioning different parts of speech to them.

Key words: *substantivization, substantivaty, conversion, the process of word formation, functional aspect, morphological, syntactic*

Ф.Г.Оруджева

Субстантивация как активный процесс в современном азербайджанском языке

Резюме

Данная статья посвящена изучению субстанции, оцениваемой как результат компрессии в языке. В статье субстантивация рассматривается как способ образования существительного из других частей речи. По мнению автора, «субстанция» является общепринятым термином. Субстанция является одним из основных способов обогащения лексического слоя языка за счет возможностей внутриязыкового словообразования. Обоснование в более широком смысле – это образование существительных посредством перехода к ним различных частей речи.

Ключевые слова: *субстантивация, субстантиваты, конверсия, способ словообразования, функциональный аспект, морфологическая, синтаксическая*

Rəyçi: filol.f.d., dos. C.M.Babayev

Redaksiyaya daxil olub: 12.04.2024